Mayın 1-dən 2024–2025-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start verilir. Qəbul prosesi [www.mektebeqebul.edu.az](http://www.mektebeqebul.edu.az) portalı vasitəsilə aparılacaq.

Elektron portalda 1 may saat 11:00-dan uşaqların qeydiyyatı, 3 may tarixindən isə Azərbaycan bölməsi üzrə sorğuların yerləşdirilməsi (məktəb və müəllim seçimi) həyata keçiriləcək.

Mayın 3-dən 17-dək dövlət ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə qəbulla bağlı təşkil olunan müsahibəyə yazılmaq üçün qeydiyyat aparılacaq. Müsahibələr 7–30 may tarixlərində keçiriləcək. Müsahibədən uğurlu nəticə əldə edən uşaqların valideynləri 12 iyun–13 sentyabr tarixlərində məktəb və müəllim seçimi edə biləcəklər.

Birinci sinfə qəbulla bağlı digər suallarınıza müvafiq linkə daxil olaraq cavab əldə edə bilərsiniz.

Birinci sinfə sənəd qəbulu 13 sentyabr tarixinədək davam edəcək.